| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 13.02.1998 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 432-IQ |
| **ADI** | Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi nümunəsinin təsdiq edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-03-1998, Nəşr nömrəsi: 03, Maddə nömrəsi: 142) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 370.000.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 01.07.2011 |

## Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi nümunəsinin təsdiq edilməsi haqqında [1]

-

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

-

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin əlavə olunan təsviri, eskizi və nümunəsi təsdiq edilsin. [2]

II. Şəxsiyyət vəsiqəsinin spesifikasiyası müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. [3]

III. "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1994-cü il, N 18, maddə 244) 3-cü maddəsinin birinci hissəsi aşağıdakı redaksiyada ifadə edilsin:

"16 yaşına çatanadək vətəndaşa verilən şəxsiyyət vəsiqəsində vəsiqənin seriyası və nömrəsi, vətəndaşın soyadı və adı, valideynlərinin soyadı və adı, onun doğulduğu yer və tarix, cinsi, qan qrupu, yaşadığı yer, şəxsiyyət vəsiqəsini verən orqanın adı və verilmə tarixi göstərilir; 16 yaşına çatdıqdan sonra vətəndaşa verilən şəxsiyyət vəsiqəsində isə bu məlumatlardan başqa vətəndaşın ailə vəziyyəti və hərbi vəzifəsi, boyu, gözlərinin rəngi haqqında məlumatlar, şəxsiyyət vəsiqəsi sahibinin şəxsi imzası və fotoşəkli əlavə edilir, habelə yuxanda göstərilənlərdən fərqli olaraq, valideynlərinin soyadı və adı əvəzinə atasının adı göstərilir".

-

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 13 fevral 1998-ci il
N 432-IQ

-

Azərbaycan Respublikasının
1998-ci il 13 fevral tarixli 432-1 saylı Qanunu ilə
TƏSDİQ EDİLMİŞDİR

-

-

### Şəxsiyyət vəsiqəsinin təsviri

-

Şəxsiyyət vəsiqəsi 106 mm x 74 mm ölçülüdür. Beynəlxalq Mülki Aviasiya Təşkilatının 9303-cü sənədlərinə uyğundur.

Şəxsiyyət vəsiqəsinin üz tərəfinin yuxarı sol küncündə Azərbaycan Respublikası Dövlət Gerbinin rəngli təsviri verilmiş, onun yanında soldan sağa "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi" sözləri yazılmışdır.

Şəxsiyyət vəsiqəsinə onun nömrəsi və seriyası yazılmışdır. [4]

a) 16 yaşına çatmamış vətəndaşlar üçün:

şəxsiyyət vəsiqəsinin üz tərəfində "Soyadı", "Adı", "Atası" "Anası", "Doğulduğu yer və tarix", "Cinsi" sözləri yazılmışdır;

arxa tərəfində "Qan qrupu", "Yaşayış yeri", "Vəsiqəni verən orqanın adı", "Vəsiqənin verilmə tarixi", "Etibarlıdır" sözləri yazılmış və möhür üçün yer qoyulmuşdur. [5]

b) 16 yaşına çatmış vətəndaşlar üçün:

şəxsiyyət vəsiqəsinin üz tərəfində gerbin alt hissəsində 25 mm x 30 mm ölçülərində fotoşəkil üçün yer qoyulmuşdur;

ortada "Soyadı", "Adı", "Atasının adı", "Doğulduğu yer və tarix" sözləri yazılmışdır;

arxa tərəfində "Ailə vəziyyəti", "Hərbi vəzifəsi", "Boyu", "Qan qrupu", "Gözlərinin rəngi", "Cinsi", "Yaşayış yeri", "Vəsiqəni verən orqanın adı", "Vəsiqənin verilmə tarixi", "Vəsiqə sahibinin imzası", "Etibarlıdır" sözləri yazılmış və möhür üçün yer qoyulmuşdur. [6]

-
-
-
-

Azərbaycan Respublikasının 1998-ci il 13 fevral
tarixli 432-IQ saylı Qanunu ilə
TƏSDİQ EDİLMİŞDİR

-

-

### Şəxsiyyət vəsiqəsinin spesifikasiyası

**(Çıxarılıb)** [7]

-

Azərbaycan Respublikasının
1998-ci il 13 fevral tarixli 432-1 saylı Qanunu
ilə
TƏSDİQ EDİLMİŞDİR

### Şəxsiyyət vəsiqəsinin eskizi

**16 yaşına çatmış vətəndaşlar üçün**

| Üz tərəf | | Arxa tərəf | | | | |
|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası vətəndaşının Şəxsiyyət vəsiqəsi | | Ailə vəziyyəti | Hərbi vəzifəsi | Qan qrupu | Gözlərinin rəngi | Cins |
| Seriya | - | Yaşayış yeri | | | Boyu | |
| Soyadı | | Vəsiqəni verən orqanın adı | | | | |
| - | Adı | Möhür yeri | | | | |
| Fotoşəkil üçün yer | Atasının adı | Vəsiqənin verilmə tarixi | | | Vəsiqə sahibinin imzası | |

| | | |
|---|---|---|
| - | ~~Doğulduğu yer və tarix~~ | ~~Etibarlıdır~~ |

**~~16 yaşına çatmamış vətəndaşlar üçün~~**

| ~~Üz tərəf~~ | | ~~Arxa tərəf~~ | |
|---|---|---|---|
| ~~Azərbaycan Respublikası vətəndaşının Şəxsiyyət vəsiqəsi~~ | | ~~Yaşayış yeri~~ | ~~Qan qrupu~~ |
| ~~Seriya~~ | - | - | - |
| ~~Soyadı~~ | ~~Doğulduğu yer və tarix~~ | ~~Vəsiqəni verən orqanın adı~~ | |
| ~~Adı~~ | - | ~~Möhür yeri~~ | |
| ~~Atası~~ | ~~Cinsi~~ | ~~Vəsiqənin verilmə tarixi~~ | |
| ~~Anası~~ | - | ~~Etibarlıdır~~ | |

-

-

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 4 dekabr 1998-ci il tarixli 568-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 1, maddə 1**)
2. 11 may 2010-cu il tarixli **1008-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 may 2010-cu il, 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 386)**
3. 30 dekabr 2011-ci il tarixli **283-IVQ** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 fevral 2012-ci il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 2, maddə 63)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 30 dekabr 2011-ci il tarixli **283-IVQ** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 10 fevral 2012-ci il, 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 2, maddə 63)** ilə ləğv edilmişdir.

[2] 4 dekabr 1998-ci il tarixli 568-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 1, maddə 1**) ilə I bənddən "spesifikasiyası" sözü çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

~~I. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin əlavə olunan spesifikasiyası, təsviri, eskizi və nümunəsi təsdiq edilsin.~~

[3] 4 dekabr 1998-ci il tarixli 568-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 1, maddə 1**) ilə Qanuna II bənd əlavə edilmişdir. Qanunun II bəndi müvafiq olaraq III bənd hesab edilməlidir.

[4] 4 dekabr 1998-ci il tarixli 568-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 1, maddə 1**) ilə Qanunla təsdiq edilmiş "Şəxsiyyət vəsiqəsinin təsviri"ndə birinci abzasdan sonra ikinci və üçüncü abzaslar əlavə edilmişdir.

[5] 11 may 2010-cu il tarixli **1008-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 may 2010-cu il, 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 386) ilə** "a" bəndinin üçüncü abzasında "**Vəsiqənin verilmə tarixi**" sözlərindən sonra "**Etibarlıdır**" sözü əlavə edilmişdir.

[6] 11 may 2010-cu il tarixli **1008-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 20 may 2010-cu il, 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 5, maddə 386) ilə** "b" bəndinin dördüncü abzasında "**Vəsiqə sahibinin imzası**" sözlərindən sonra "**Etibarlıdır**" sözü əlavə edilmişdir.

[7] 4 dekabr 1998-ci il tarixli 568-IQD nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 1, maddə 1**) ilə Qanunla təsdiq edilmiş "Şəxsiyyət vəsiqəsinin spesifikasiyası" çıxarılmışdır. Əvvəlki redaksiyada deyilirdi:

**~~Şəxsiyyət vəsiqəsinin spesifikasiyası~~**

-

~~Şəxsiyyət vəsiqəsi şəffaf plastik örtük arasında yerləşdirilmiş kağızdan ibarətdir.~~
~~Şəxsiyyət vəsiqəsi ofset üsulu ilə çap olunur.~~
~~İstifadə olunan material:~~
~~Xüsusi qorunma qabiliyyətli su nişanları olan 100 faizli sellüloz kağız.~~
~~Qatılığı 95,0 q/kv.m.~~
~~Görünüşü:~~

~~Üz tərəfin sol küncündə Azərbaycan Respublikasının gerbi həkk edilmiş və gerbdən soldan sağa istiqamətində "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi" sözləri yazılmışdır.~~

~~Şəxsiyyət vəsiqəsində nömrə və seriyası həkk edilmişdir.~~

~~Şəxsiyyət vəsiqəsinin plomblu olmasını təmin etmək üçün şəxsiyyət vəsiqələrinin kənarları ilə plastik örtük arasında 3 mm məsafə olacaqdır.~~

~~Şəxsiyyət vəsiqəsinin qalınlığı maksimum 0,60 mm-dir. Künclər 3,18 mm radius boyunca əyilmişdir. Vəsiqənin kənar hissələrinin normal çıxıntısı vəsiqənin səthinin 0,08 mm-dən çox olmaması vacibdir.~~

~~Optik nəzarət oxunuşu maşınında və ya maqnit xətt oxuyucusu olan maşın-da oxunula bilmək üçün şəxsiyyət vəsiqəsinin səthi hamardır.~~

~~Şəxsiyyət vəsiqəsinin ön hissəsinin altı boyunca maşınla oxunula bilən iki zolaqlı Optik Nəzarət Oxusu hissəsi vardır.~~

~~Vəsiqənin ortasında ultramavi işıq altında görünən Azərbaycan Respublikasının gerbi həkk edilmişdir.~~
~~Beş mühafizə dərəcəsi olan bu sənəd lazer rəngli printerlərdə kserosurət, yaxud üzçıxarma üsulu ilə hazırlana bilməz.~~

-